# XOŞBƏXT HƏYAT VƏ SAĞLAM ORTAM İLAHİ GÖSTƏRİŞLƏRƏ ƏMƏL ETMƏKDƏDİR.

Unutmayaq! Diqqətli olaq! Danışdığımız sözlərə, etdiyimiz əməllərə, hətta düşüncələrimizə və qəlblərimizdən keçənlərə görə məsuliyyət daşıyırıq. Şübhəsiz Allah hər şeyi görür və hər şeyi dəyərləndirəcəkdir.

**1. Gəzintimizə nəzarət edək!**

وَلَا تَمْشِ فِي الْأَرْضِ مَرَحًا

Yer üzündə təkəbbürlə gəzib dolanma.

(İsra, 37)

**2. Səsimizə nəzarət edək!**

وَاغْضُضْ مِنْ صَوْتِكَ

Danışanda səsini qaldırma.

(Loğman,19)

**3. Danışığımıza nəzarət edək!**

قُولُوا لِلنَّاسِ حُسْنًا

İnsanlarla xoş danışın!

(Bəqərə, 83)

**4. Baxışımıza nəzarət edək!**

وَلَا تَمُدَّنَّ عَيْنَيْكَ

Başqasının haqqı olana göz dikmə!

(Taha, 131)

**5. Qulağımıza nəzarət edək!**

وَلَا تَجَسَّسُوا

Bir-birinizi güdməyin

(Hücərat, 49)

**6. Yeməyimizə nəzarət edək!**

كُلُوا وَاشْرَبُوا وَلَا تُسْرِفُوا

Yeyin, için, lakin israf etməyin!

(Əraf, 31)

**7. Ortamımıza nəzarət edək!**

وَلَا يَغْتَبْ بَعْضُكُمْ بَعْضًا

Bir-birinizin qeybətini qırmayın!

((Hücərat, 49)

# QURANLA SÖHBƏT

*Bismillahir Rəhmanir Rəhim...*
*Salam və Salavat olsun sonuncu peyğəmbərimiz Məhəmməd (s) Peyğəmbərə və onun Ailəsinə, Pak Əhli-Beytə (ə).*
*Allahın Salamı olsun İslam Yolunu gedənlərə və İslama Doğru gələnlərə...*



***Bu, (Allah tərəfindən nazil edilməsinə, haqdan gəlməsinə) heç bir şəkk-şübhə olmayan, müttəqilərə (Allahdan qorxanlara, pis əməllərdən çəkinənlərə) doğru yol göstərən Kitabdır. ("Bəqərə" 2)***

**Sən kitabsan?**
Quran: "Bu, insanlar üçün bir açıqlama, doğru yolu göstərən rəhbər və öyüd-nəsihətdir." (Ali-İmran" 138)

**Kim tərəfindən nazil olunub?**
Quran: "(Ya Rəsulum!) Həqiqətən, Quran sənə hikmət sahibi olan, (hər şeyi) bilən Allah tərəfindən təlqin (vəhy təlim) olunur." ("Nəml"6)

**Nə üçün nazil oldun?**
Quran: "Ey insanlar! Rəbbinizdən sizə bir öyüd-nəsihət, köksl ərdə olana bir şəfa, möminlərə doğru yolu göstərən rəhbər və mərhəmət gəlmişdir." ("Yunis" 57)

**Kimə nazil oldun?**
Quran: "Muhəmmədə haqq olaraq nazil oldu". ("Muhəmməd" 2)

**Peyğəmbərin qarşısında üzərimizə hansı vəzifə düşür?**
Quran: "Peyğəmbər sizə nə verirsə, onu götürün, nəyi də qadağan edirsə, ondan çəkinin. Allahdan qorxun. Həqiqətən, Allah şiddətli cəza verəndir." ("Həşr" 7)

**Mənim üçün ən gözəl nümunə kimdir?**
Quran: "Həqiqətən, Allahın Rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər (Allahdan, qiyamət günündən qorxanlar) və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir!" ("Əhzab" 21)

**Mənə Allahın əzəmətindən danış.**
Quran: "Əvvəl də, axır da, zahir də, batin də Odur. O, hər şeyi biləndir!" ("Hədid" 3)

**O haradadır?**
Quran: "Siz harada olsanız belə, o sizinlədir" ("Hədid" 4)

**Onu özümüz üçün necə sübuta yetirək?**
Quran: "Sən Allahın rəhmətinə əsər əlamətinə bax ki, torpağı öldükdən sonra necə dirilir" ("Rum" 50)

**Onunla necə danışaq?**
Quran: "Mənə ibadət et və məni anmaq üçün namaz qıl" ("Ta-ha" 14)

**Yaradılışdan məqsəd nədir?**
Quran: "Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım" ("Zariyat" 56)

**İbadətdən məqsəd nədir?**
Quran: "Sənə yaqin (ölüm) gələnədək Rəbbinə itaət et!" ("Hicr" 99)

**Şeytan kimdir?**
Quran: "Həqiqətən, Şeytan sizin düşməninizdir, onu (özünüzə) düşmən tutun. " ("Fatir"6)

**Şeytanın vəsvəsələrinin müqabilində nə etməliyəm?**
Quran: "Əgər sənə Şeytandan bir vəsvəsə gəlsə, Allaha sığın" ("Fussilat" 36)

**Mənim daxili düşmənim kimdir?**
Quran: "Nəfs (insana) pis şeylər görməyi əmr edər" ("Yusuf" 53)

**Nəfsimlə necə rəftar etməliyəm?**
Quran: "Nəfsini (günahlardan) təmizləyən mütləq nicat tapacaqdır!" ("Şəms" 9)

**Hara üz tutduğumu bilmək istəyirəm.**
Quran: "Ey insan! Sən (ölənə qədər) Rəbbinə doğru çalışıb çapalayırsan. Sən Ona qovuşacaqsan" ("İnşiqaq" 6)

**Bunun üçün yol azuqəsinə ehtiyac varmı?**
Quran: "Ən yaxşı tədarük (azuqə) isə təqvadır (pis əməllərdən çəkinməkdir)." ("Bəqərə" 197)

**Təqvanın nə faydası var?**
Quran: "Kim Allahdan qorxsa, Allah ona (hər çətinlikdən) bir çıxış yolu əta edər və ona təsəvvürünə gətirmədiyi bir yerdən ruzi bəxş edər." ("Təlaq" 2-3)



# RAMAZAN AYININ
## ƏZƏMƏT VƏ BƏRƏKƏTLƏRİ

***Bizi yartdığına görə uca və mərhəmətli olan Allaha sonsuz şükürlər olsun. O Allaha ki, insanı bütün məxluqlardan üstün və dəyərli yaratdı. Allah insana ölməz və əbədi ruh bəxş etdi və yaradılmışlar içərisində insandan başqa heç kimə həmin ruhu vermədi.***

***İnsanın dəyəri onun ruhu və ruhi yüksəlişindən qaynaqlanır. Əgər insan Allah verdiyi ruha sahib çıxmasa və günahlar nəticəsində onu məhv etsə, təbii ki, Allah qatında onun heç bir dəyəri qalmaz. İnsan o vaxt şərəfli və ləyaqətli hesab olar ki, öz ruhunun təkamülü yolunda ciddi addımlar atıb, ruhunu hər gün mənəvi inkişafa doğru yüksəltmiş olsun.***

Ruhun mənəvi yüksəlişi, insanın ibadətindən aslıdır. Yəni əgər insan öz mənəvi aləminin təkamül etməsini istəsə, gərək bu yolda ciddi addımlar atıb, ibadətlərini düzgün şəkildə yerinə yetirsin.

İslam dinində ibadətlərin sayı çoxdur, amma onların içərisindən namaz və oruc böyük əhəmiyyətə malikdir. Peyğəmbər (s) və İmamlardan (ə) namaz qılıb, oruc tutmağın önəmi barədə kifayət qədər hədislər nəql olunub. Hal-hazırda Ramazan ayı olduğu üçün, namaz barədə deyil, ramazan ayı və bu ayda oruc tutmağın əhəmiyyəti barədə danışmaq daha uyğun olardı.

Bunu nəzərə alaraq insanın mənəvi yüksəlişinə səbəb olan Ramazan ayı və bu ayda oruc tutmağın önəmi barədə danışacağıq.

İlk olaraq Ramazan ayı və ümumiyyətlə oruc tutmaq barədə nazil olan ayələrdən birinə işarə edib, daha sonra həmin ayənin mənasını açıqlamağa çalışacağıq. Allah Bəqərə surəsinin 183-cü ayəsində buyurur: Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi ki, (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz!

Ayəni oxuyanda, ilk olaraq insanın zehnində belə bir fikir formalaşır ki, islam dinindən öncə olan bütün ilahi dinlərin ardıcılları Ramazan ayında oruc tutublar və onlara vacib edildiyi kimi, bizə də bu oruc vacib edildi. Halbuki, bu heç də belə deyil. Ayənin açıqlaması haqqında imam Sadiqdən (ə) hədis nəql olunub. İmam Sadiq (ə) buyurur: Uca yaradan olan Allah Ramazan ayının orucunu islamdan öncəki ümmətlərə vacib etməyib. Bunu eşidən şəxs imamdan soruşur ki, elə isə, Allahın quranda buyurduğu bu ayənin “Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib edildiyi kimi, sizə də vacib edildi” mənası nədir? İmam (ə) həmin şəxsə buyurdu: Ramazan ayının orucu keçmişdə yaşayan insanlara yox, onların peyğəmbərlərinə (ə) vacib edilmişdi və yalnız İslam ümməti bütün tövhid ardıcılları üzərində üstünlük qazanmış və bu vəzifəni yerinə yetirməkdə digər peyğəmbərlərlə (ə) eyni mərtəbəyə qoyulmuşdur.

Həmçinin imam Baqir (ə) bu barədə belə buyurur:

Ramazan ayında oruc tutmaq həmişə vacib idi və bu vacib əməl yalnız peyğəmbərlərə (ə) aid idi. Ramazandan qeyri aylarda isə oruc tutmaq onların ümmətinə vacib idi. Lakin Muhəmmədin (s) ümməti Allahın xüsusi lütfünü qazandı və bu baxımdan onlar peyğəmbərlər (ə) cərgəsinə qoyulmuşdular.

Oxuduğumuz hər iki hədisdən belə nəticəyə gəlmək olur ki, oruc tutmaq bütün ilahi dinlərin ardıcılları içərisində olub, amma Ramazan ayında oruc tutmaq, yalnız peyğəmbərlərə (ə) xas olub, islam dini gəldikdən sonra isə, Allah Ramazan ayının orucunu islam ümmətinə vacib edib.

Bu baxımdan müsəlman olduğumuz üçün fəxr etməli və sevinməliyik ki, Allah keçmişdə yaşayan peyğəmbərlərə (ə) nəsib etdiyi mənəvi fürsəti, bizə də qismət edib.

Bu ay o qədər əzəmətli, bərəkətli, önəmli və mənəviyyatla dolu olan aydır ki, Allah səmavi kitabların hamısını bu ayda nazil edib.

Hədislərin birində imam Sadiq (ə) buyurur: Səmavi kitabların hamısı bu ayda nazil olub. İbrahimin (ə) Suhuf kitabı Ramazan ayının 1-ci gecəsi, Musanın (ə) Tövratı ayın 6-da, İsanın (ə) İncili 13-cü gecə, Davudun (ə) Zəburu 18-ci gecə, Quran isə bu ayın 23-cü gecəsində nazil olub.

Bu hədis bir daha sübut edir ki, Ramazan ayı digər aylardan fərqlidir və bu ayın özünə məxsus dəyər və bərəkətləri var.

Digər aylardan fərqli olaraq, biz bu ayda Allahın qonaqlığına dəvət olunmuşuq. Peyğəmbər (s) Ramazan ayının gəlişi ilə bağlı müsəlmanlara üz tutaraq, geniş bir xütbə edir. Həmin xütbənin bir cümləsində belə buyurur: Ey insanlar! Siz bu ayda Allahın qonaqlığına dəvət olunubsunuz.

Peyğəmbərin (s) bu cümləsi, Ramazan ayının önəm və dəyərini çatdırmaq üçün kifayət edər. Deməli Ramazan digər aylardan çox fərqlənir və bu fərqliliyi dərk etmək üçün layiqli



qonaq olmağı da bacarmaq lazımdır. Ramazanın qonaqlığı maddi yox, mənəvi və ruhun yüksəlişinə səbəb olan qonaqlıqdır.

İnsan bu ayda oruc tutmadan və özünü günahlardan uzaqlaşdırmadan, Allaha layiqli qonaq ola bilməz.

Əgər bu ayda yemək, içmək və günahlardan çəkinsək və ay boyunca öz rəftarımıza diqqət edib, Allahın bəyənmədiyi işlərdən uzaq dursaq, Allaha layiqli qonaq ola bilərik.

Təəssüflər olsun ki, bəzi insanlar bu ayın qədrini bilmir, həm oruc tutmaqdan qaçır, həm də digər aylarda etdiyi günahları təkrarlayır. Bu cür insanlar, qonaqlığa dəvət olunub, ac olduqları halda yemək yeməyən insanlara bənzəyirlər.

Halbuki, əgər Ramazanın dəyərini, bərəkətini və insanlara verəcəyi faydalarını dərk etsələr, heç vaxt bu aya qarşı etinasız yanaşmazlar. Əgər insan bu ayda düzgün şəkildə oruc tutarsa, həm cismi, həm də ruhi sağlamlığı əldə etmiş olar.

Ramazan ayının dəyər və bərəkəti barədə nəql olunmuş hədislərdən birində Peyğəmbər (s) belə buyurur: Allah-taala Ramazan ayının hər gecəsində üç dəfə buyurar: Sual verən varmı ki, onun istəyini verim? Tövbə edən varmı ki, onun tövbəsini qəbul edim? Bağışlanmaq istəyən varmı ki, onu bağışlayım?

Həmçinin imam Sadiq (ə) belə buyurur: Ramazan ayının hər gecəsinin iftar zamanında Allah cəhənnəmə layiq minlərlə insanı əfv və cəhənnəm azabından xilas edir.

Bu və bu kimi bir çox hədislər Ramazan ayının önəmli və əzəmətli bir ay olduğunu sübut edir. Bu baxımdan çalışmalıyıq ki, bu ayın mənəvi fürsətlərindən istifadə edib, digər aylardan fərqli olaraq, bu ayda mənəvi yüksəlişimiz üçün daha çox addım ataq.

Hacı Elçin Əliyev



# İnsanları dilinizdən qeyri vasitələrlə dinə dəvət edin!

**Onlar sizlərdən təqvanı, çalışqanlığı, namazı və xeyir işləri görməlidirlər, təbliğ budur.**

İslaminSesi – Hədislərə görə əməlsiz alim balsız arıya bənzər. Din və ictimaiyyət üçün ən xeyirli insan əməlisaleh alim, ən pisi isə əməlsiz alimdir. Bir alim cəmiyyətin hidayət çırağı olduğu halda onu uçuruma da apara bilər. Bu onun əməllərindən asılıdır. Dini çatdırmaq ən böyük savablara malik olduğu kimi, bu dona girib saxtakarlıq etmək də ən böyük bəlaları cəlb edər.

Alimin dərəcəsi o qədər alidir ki, qiyamət günündə o ətrafındakılara nur saçar və şəfaət verə bilər. Onun darvazasına belə baxmaq ibadət sayılır.

Bu hansı alimlərə aiddir? Təbii ki, burada əməli əmrlərilə üst-üstə düşən alimdən söhbət gedir.

Burada alimin əməli üstündə köklənmək əbəs yerə deyil.

Usuli-Kafi əsərində (cild-2 səh-78) Peyğəmbərdən (s) belə bir hədis var:

"İnsanları dilinizdən qeyri vasitələrlə dinə dəvət edin! Onlar sizlərdən təqvanı, çalışqanlığı, namazı, və xeyir işləri görməlidirlər. Təbliğ budur"

Təcrübələr də bunu göstərib ki, insanların səmimiyyəti, sədaqəti və bir sözlə imanı əməl səhnəsində təcrübədən keçir və özünü burada doğruldur. Nə gözəldir ki, insanlar şüar deyil, əməllə imanın həlavətini digərinə daddıra bilsin! Nə gözəl olar ki, insan xums verməyi , yetimlərə sədəqə verməyi, əməldə göstərərək, bunun vacibliyini digərlərinə aşılaya bilsin.

Məhz buna görədir ki, əxlaq alimləri əxlaqın və əməlin dinin təbliğinin ən düzgün və səmimi yolu olduğunu bildirirlər.




***Bir anda yuxudan oyandım. Çox maraqlı bir işıq gördüm amma otağımın işığı bağlı idi. Baxdım saat 3:30 gecə yarısıdı. Çox yaxşı gördüyüm bu qədər işıq haradandı görəsən?***

Birdən çaşıb qaldım... Baxdım ki, əlimin yarısı divarın içindədir.

Dərhal əlimi çıxartdım, qorxu içində oturub əlimə baxırdım.

Təkrar əlimi divara doğru uzatdım yenə əlim divarın içinə girirdi!

Bir gülümsəmə səsi eşitdim. Üzümü qardaşıma doğru çevirdim, yatırdı.

Qorxu içində yatağımdan qalxıb qardaşımı oyandırmağa getdim. Amma cavab vermədi. Anamın otağına doğru getdim, atamı oyatmağa çalışdım.

Mənə cavab vermələrini istəyirdim amma heç kim cavab vermirdi.

Anamı oyandırmaq üzrəykən, baxdım ki anam yuxudan oyandı. Yuxudan oyandı amma mənimlə danışmırdı.

- Anam "Bismilləhir-Rahmənir-Rahim" deyirdi və təkrarlayırdı. Atamı oyandırdı, "qalx qalx bir uşaqlara baxaq" dedi. "İndi zamanımı, qoy yataq sabah ola xeyir ola" dedi atam. Amma anamın israrı üzərinə atam qalxdı, birlikdə otağımıza doğru gəldilər. Başladım qışqırmağa, "ana, ata" amma heç biri cavab vermirdi!!! Anamın paltarını çəkir məni dinləməsini istəyirdim amma anam məni hiss etmirdi!!! Başladım anamın arxasından getməyə. Bizim otağımıza girdilər və anam işıqları yandırdı. Amma mənim üçün fərq etmirdi çünki mənim üçün hər tərəf işıq idi. Tam o sırada çox maraqlı bir şeylə qarşılaşdım. Öz vücudumu gördüm!!!

Bəli öz vücudumu...

Oturub öz özümü seyr edirdim, iki dənəydim. Öz özümə soruşurdum kimdir bu görəsən? Necədə mənə bənzəyir!!! Başladım öz özümü oyandırmağa, bu kabusdan xilas olum deyə, amma oyana bilmədim...

Atam anama dedi "bax yatırlar, gəl gedək". Amma anam sakit ola bilmədi və mənim yatdığım yatağa doğru gələrək məni oyandırmağa başladı "oyan Məhəmməd, oyan mənə cavab ver". Amma cavab verə bilmirdim!!!

Bir neçə dəfə oyatmağa çalışdı amma yox... Birdən baxdım ki, atamın gözlərindən yaşlar tökülür. O atam ki, indiyə qədər onun göz yaşlarını görə bilməmişdim.

Qışqırışmalar başladı o yerdə.. qardaşım oyandı və soruşdu nə oldu?

Anam ona qışqıraraq, böyük qardaşın Məhəmməd ölmüş. Çox kədərli bir şəkildə ağlayırdı. Qışqırmalar çoxaldı. Bu da mənim ruhuma qəribə bir əzab, sızıltı verirdi.

Anama yaxınlaşaraq, ana ağlama mən burdayam bax mənə!! Amma heç kim mənə cavab vermirdi, niyə? səbəb nə idi?

Oturub qışqırmağa başladım, burdayım baxın mənə. Amma yenə heç biri mənə cavab vermirdi. Başladım "Ya RƏBBİ, Ya RƏBBİ nə olar məni bu yuxudan və olduğum vəziyyətdən qurtar" -deyə yalvarmağa. Uzaqdan bir səs eşitdim və getdikcədə yüksəlirdi. Bu səs ALLAHU taalanın bir ayəsi idi...

(And olsun sən bundan qəflətdə idin, dərhal biz sənin pərdəni qaldırdıq. Bu gün artıq gözün itidir.)

Birdən iki adam məni tutdu, amma insan deyildilər. Çox qorxdum !! Başladım qışqırmağa, buraxın məni, siz kimsiniz? Nə istəyirsiniz?

"Qəbirə qədər sənin gözətçilərinik"- dedilər.

"Mən ölmədim, hələ yaşayıram"- dedim

"Niyə məni qəbirə aparırsınız? Buraxın məni!! Mən hiss edirəm, danışıram və görürəm, mən ölmədim". Mənə gülümsəyərək cavab verdilər.

Dedilər- "Ey insanlar sizlər çox maraqlı varlıqlarsınız, sanırsınız ki, ölüm həyatın sonudur amma bilmirsiniz ki, əslində sizin yaşadığınız həyat bir yuxudan ibarət olub,

öldüyünüz zaman oyanırsınız.”

Məni qəbirə doğru çəkirdilər hələ yoldaykən baxdım ki, mənim kimi insanlar və yanlarında da eyni o iki varlıqdan var, kimi ağlayır kimi gülür və kimi isə qışqırırdı. Onlardan soruşdum niyə belə edirlər?

Dedilər ki, bu insanlar çaşqınlıq içərisindədilər, hara getdiklərini bilirmirlər, kimisi dəlalətdədir.. Qorxu içində sözlərini kəsərək soruşdum:

“Atəşəmi gedirlər yəni?” – “bəli atəşə, o gülənlər isə Cənnətə gedirlər”- dedilər

Dərhal soruşdum onlardan- “yaxşı mən hara gedəcəm”??

Dedilər ki, “Sən bəzən yaxşı gedirdin, bəzəndə pis. Bəzən tövbə edib sabahısı gün günah işləyirdin və izlədiyin yol tam olaraq müəyyən deyildi”. Sözlərini qorxu içərisində kəsərək soruşdum:

“Yəni mən atəşəmi gedirəm yoxsa?”

Onlarda -“ALLAHIN rəhməti genişdir və səfərdə uzundur” dedilər.

Üzümü çevirdim qorxu içərisində baxdım ailəm, atam, əmim, qardaşlarım və qohumlarım hamısı bir sandıq içində məni daşıyırdılar.

Onlara doğru getdim və onlara dedim ki, mənim üçün dua edin lütfən.

Amma heç kim mənə cavab vermirdi. Kimi ağlayırdı, kimi isə hüzünlü idi.

Qardaşıma gedərək, “diqqətli ol dünyanın fitnəsi səni aldatmasın”-dedim.

Məni eşitməsini çox istəyərdim. O iki mələk məni qəbirdəki cəsədimin üzərinə bağladılar. Baxdım ki, atam torpaq atır, qardaşlarım torpaq atır,

Ordakı insanlar hamısı torpaq atırdı üzərimə….

dedim- “ahh

Kaş ki, onların yerində olsaydım ALLAHA tövbə etsəydim…

Kaş ki, dünən səhər namazımı qılsaydım…

Kaş ki, hər gün RƏBBİMƏ dua etsəydim…

Kaş ki, hər gün tövbəmi yeniləsəydim…

Kaş ki, pisliklərdən uzaq olsaydım…”

Başladım qışqırmağa, “ey insanlar diqqətli olun dünya həyatı sizləri aldatmasın”

Heç olmasa birinin məni eşitməsini çox istəyərdim. amma….

Elə isə həmin gün “kaş ki…” sözünü deməməyimiz üçün fani dünyanın aldadıcı gözəlliklərinə uymayaq, bir hərəkəti etdiyimiz zaman bizim də bir gün öləcəyimizi xatırlayaq. Gecə yatdığımız zaman “mən bu gün nə savab iş gördüm? Nə günah iş gördüm” deyə özümüzü mühakimə edək. Başımızı yastığa qoyduğumuz zaman vicdanımız rahat olaraq yataq....

/islamadogru.biz/



# İBRƏT ALMAQ LAZIM...




***İndi başa düşdük ki, evimiz çox kiçik deyilmiş, ya da elə də soyuq deyilmiş, yatdığımız çarpayının, üzərimizdəki yorğanın markası da vacib deyilmiş. Yediyimiz yeməyin duzunun, ətinin, tamatının az və ya çox olması da bir şey deyilmiş. Yeməyimizin beş-on dəqiqə gecikməsi də. Ağız dolusu danışdığımız, tərif etdiyimiz telefonumuzun, maşınımızın markasının, bağımızın və var dövlətimizin miqdarının əhəmiyyətsizliyini də anladıq.***

***Artıq öyrəndik ki, milyonlarla manata aldığımız evin məzarımız ola biləcəyini. Anladıq, üzərimizdəki paltonun dəyərini, ayağımızın üşüməməsi üçün küncdə duran yorğanın, isti çay, şorba, duz, çörəyin nə qədər qiymətli olduğunu.***

***Qəlbinə dəydiyimiz insanın könlünü almağa vaxtımızn olmayacağını da anladıq .....***

***Bu afətlər, fəlakətlər həm də bir dərs olmalı, unudulmamalı, zənginliyin, malın, mülkün və vəzifənin əmanət olub İNSANLIĞIN qalıcı və önəmli olduğunu. Elə isə sevdiklərinizin qiymətini bilək, qəlbini sındırmayaq, dəstək olaq. Yediyimizi və içdiyimizi israf etməyək, paylaşmağı bacaraq. Çünki əmanət olan həyatımızı, canımızı nə zaman və harada təslim edəcəyimiz heç bəlli deyil.***

***Aşık Kul Cemal***

# Övlad tərbiyəsində diqqət edək



***Hər bir valideynin xəyalıdır ki, düzgün övlad tərbiyə etsin, cəmiyyətə, ailəyə xeyirli ,sağlam və saleh övlad təhvil versin. Amma bu iş bir o qədər də asan deyil, tərbiyəli övlad yetişdirə bilmək üçün əvvəla valideyn çox səbirli və təmkinli olmalıdır və övlad tərbiyəsi haqda elmi biliyə malik olmalıdır, övlad tərbiyə etmək üçün də oxumağa ehtiyac var əks halda bu işdə müvəffəq ola bilmərik.!***

Bəzi tərbiyə metodları var ki, deyirlər: uşaq tərbiyəsi 5 yaşdan başlayır və s. 5 yaşa kimi uşaq nə istəsə edə bilər, amma bu səhv fikirdir, müqəddəs İslam dini bizə göstəriş verir ki, övlad tərbiyəsi uşaq dünyaya gəldiyi gündən, hətta ana bətnində ikən başlayır. Bir nəfər Peyğəmbərimizin yanına gəlib sual etdi Ya Rəsulallah övladımı neçə yaşından tərbiyə etməyə başlamalıyam? Peyğəmbər (s) soruşdu: uşaq neçə yaşındadır? Dedi: doqquz aylıqdır. Peyğəmbərimiz cavab verdi: doqquz ay gecikmişsən.

Bəli uşaq ağ bir vərəq kimidir ona nəyi necə öyrətsən o cürədə davam edəcək. Odur ki uşağa nəzm intizamı, ədəb əxlaqı, nə ilə oynamaq olar, nə ilə olmaz, düzgün yemək qaydasını, düzgün yatmaq rejimini və s. ən xırda şeyləri belə uşaq dünyaya gəldiyi gündən düzgün formada öyrətməyə diqqət edək. Mən bu məqaləmdə uşaq tərbiyəsində diqqət olunması lazım olan bir neçə mövzuya toxunmaq istəyirəm:

## Rəqəmsal vəsaitlərdən istifadə

Uşağın düzgün inkişafı üçün vaxtını düzgün istifadə etməyinə xüsusi diqqət etmək lazımdır, vaxtını boş yerə tv, telefon və s. kimi şeylərin qarşısında itirməyinə icazə verməməliyik. Bu iş uşağın aqressiv olmasına, yuxusunun azalmasına, zəka və fiziki inkişafının zəifləməsinə səbəb olur. Hətta diqqət dağınıqlığı, nitk inkişaf geriliyi və s. bir çox psixoloji xəstəliklərə də səbəb olur. İki yaşa kimi uşağın televiziya və telefonda vaxt keçirmək tələbi heç yoxdur bunu ona biz öyrədirik, iki yaşdan sonra da müəyyən bir vaxt çərçivəsində vermək olar, amma nəzarət hər zaman lazımdır, nəyə baxır, nə oynayır və s. Nəzarətimiz hər zaman olmalıdır.

## Övladlar arasında ədalətə diqqət

Övlad tərbiyəsində diqqət edilməsi lazım olan digər bir məsələ isə mütəxəssislərin və dinimizin fikrincə, valideynlərin övladlarla ədalətli rəftarı, birini o birindən üstün tutmamasıdır. Əgər valideyn övladlarından biri ilə o biri arasında fərq qoyursa, o biri övladda bu övlada qarşı qısqanclıq və ya nifrət meydana gələ bilər. Bu məsələyə nümunə olaraq hz. Yusifin hekayəsini də misal çəkmək olar.

## Yuxu rejimi və əqlin inkişafı

Uşaqların düzgün inkişaf edib tərbiyə edilməsində düzgün yuxu rejiminin çox böyük təsiri var. Yuxu rejimi normal olmayan uşaqlarda zehni və fiziki problemlər yaranır. Az və gec yatan uşaqlarda narahatlıq, emosyanal pozğunluqlar, diqqət və konsentrasya pozğunluqları, inadkarlıq, aqressivlik, qavrayış zəifliklərinə rast gəlinir. Buda öz növbəsində uşaqlarda davranış problemlərinin və öyrənmə geriliyinin yaranmasına səbəb olur,buna görədə məktəbli uşaqların düzgün yuxu rejiminin olmasına xüsusi diqqət etmək lazımdır .

Düzgün yuxu rejimi ibarətdir:

0-3 yaşa kimi – günorta saat 1-ə kimi yatmış olmaq, axşam saat 10 a kimi yatmış olmaq 3+ uşaqlarda axşam saat 10 da yatmış olmaq.

Yeməklərin tərbiyədə təsiri:

Uşaqların düzgün tərbiyə edilməsində yeməklərində təsiri böyükdür, valideynlər uşağın yediklərinin həm halal olmağına həm də sağlam qidalar olmağına diqqət etməlidirlər. Quran və hədislərə əsasən haram yeməklər insanın ruhunu qaraldır və mənfi xasiyyətlər yaradır.

Bəqərə surəsinin 168-cı ayəsində buyrulur: “Ey insanlar, yer üzündə olan şeylərin (müxtəlif yeməklər və digər varlıqların) halal və paklarından yeyin, faydalanın və şeytanın addımlarına tabe olmayın ki, o, sizin aşkar düşməninizdir”. Qeyri-sağlam və nizamsız qidalanma uşaqlarda əqli və fiziki inkişafın zəifləməsinə, çəki problemlərinin yaranmasına və bir çox sağlamlıq problemlərinə səbəb olur. Sağlam qidalanma isə uşaqları xoşbəxt edir. Sağlam qidalanma çəkidən asılı olmayaraq uşaqların daha sakit olmasına, özünə hörmət duyğusunun yaranmasına, özlərini güclü hiss etməsinə emosional problemlərlə üzləşməməsi, yaşıdları və ailələri ilə daha yaxşı münasibət qurmalarına səbəb olur. İsveçin Höteborq Universitetinin nəzdində fəaliyyət göstərən Salqrensika Akademiyasının alimlərinin apardığı araşdırma nəticəsində

rafinə edilmiş şəkər və yağın istifadəsinin məhdudlaşdırılması və meyvə-tərəvəz istehlakının artırılması uşaqlarda özünəhörmət duyğusu yarat-dığı məlum olub. Bununla yanaşı, həmin qidalar sayəsində balacaların özlərini güclü hiss etməsi, emosional problemlərlə üzləşməməsi, yaşıdları və ailələri ilə daha yaxşı münasibət qur-duğu aşkarlanıb. Nəticələrə əsasən, sağlam qidalanan uşaqlarda özünəhörmət hissi daha güclüdür. Bundan əlavə, onlar həmyaşıdları ilə anlaşılmazlıq və emosional cəhətdən problem yaşamayıblar. Tam buğda məhsullarının qəbulu da balacaların yaşıdları ilə münasibətlərinin yaxşılaşdırılmasında rol oynayıb.

## Uşaqlar niyə sözə qulaq asmayıb inadkarlıq edirlər?

Müasir dövrdə valideynlər uşaqların inadkarlığından tez-tez şikayət edirlər: "Bu halda onlarla necə davranacaqları barədə məlumatsız olurlar. Əslində "xeyr", "lazım deyil", "istəmirəm" deyən uşaqla inadlaşmaq, onu cəza ilə qorxutmaq, kimin dediyi olacaq deyə yarışa girmək olmaz. Bəzən uşaq məhəbbətinizi, səbrinizi, onu nə qədər sevdiyinizi bilmək üçün "yox" deyib inad edə bilər. Əgər qəzəblənib üstünə qışqırsanız, "Mən haqlıyam, məni sevmirlər", – deyə düşünər. Uşaq inad edərsə, bunun səbəbini soruşun: "Göstərilən səbəbin nə qədər gülməli və əsassız olmasına baxmayaraq, səbirlə onu dinləyin. Özünüzü uşağın yerinə qoyun. Narahatlıq və qorxularını anlamağa çalışın. Ona səbirlə, əsəbiləşmədən qulaq asdığınızı görəndə uşaq duyğularını ifadə etməyi öyrənir. Uşaq istəklərinin yerinə yetirilmədiyini görəndə o, daha da inad göstərə bilər. Anasından, atasından inciyən uşaq intiqam hissi ilə də inadkar ola bilər".

## Uşaqlarla düzgün davranmağın yolları

Uşaqlar ağ səhifə kimidir: "Təbii ki, ora nə yazsan, gələcəkdə də onunla rastlaşacaqsan. Başqa bir deyimdə isə bildirilir ki, uşaq evin güzgüsüdür. Yəni evdə valideynlər necə davranırlarsa, uşaqlar da onları eynilə əks etdirir. Uşaqlara tərbiyə vermək, onları düzgün qaydada böyütmək isə elə də asan iş deyil. Həmçinin valideynlər onlarla necə davranmaq lazım olduğunu, onların nələri sevəcəyini və onları necə sevindirmək mümkün olduğunu bilsələr, çox yaxşı olar. Validenynlər uşaqları sevindirməyin o qədər də çətin olmadığını anlamalıdırlar. Düzgün üsul seçməniz, övladınızın fərdi xüsusiyyətlərini nəzərə almanız bu işdə sizə yardımçı olar. Övladlarınız eyni tərbiyədə, eyni ailə mühitində böyüsə də, hər birinin özünəməxsus xüsusiyyətləri olduğunu unutmayın. Onların fərdi xüsusiyyətlərini nəzərə almanız yalnız bu işdə deyil, tərbiyə zamanı, onlarla davranarkən, qaydalar qoyarkən, dərs tapşırıqlarını yerinə yetirərkən və digər nüanslarda sizin lazımınız olacaq. Məsələn, birlikdə ev işləri görün. Bu işləri əyləncəli vəziyyətə gətirə bilərsiniz. İşlərinizi planlayaraq, onunla birgə ev işləri görməniz marağına və sizə yardım edə bildiyi, ona güvəndiyiniz üçün xoş hiss yaşamasına səbəb olar. Avtomobilinizi təmir edərkən, evdə təmir işləri apararkən balaca oğlunuzun köməyindən yararlanın. Bu zaman siz həmçinin şəxsi davranışınızla ona nümunə olduğunuzu unutmayın. Ona kitab hədiyyə edin. Kitab hədiyyə etmək üçün xüsusi bir günün olmasını gözləməyin. Yaşına uyğun və maraqlı



hekayələrdən ibarət kitablar övladınızın sevincinə səbəb olar. Birlikdə film izləyin. Film maraqlı olduğu qədər övladınızın yaşına uyğunluğuna da diqqət edin. Film izləmə zamanını övladınız üçün əyləncəli edin. Gəzintilər təşkil edin. Onun sevdiyi yerlərə getməniz övladınız üçün daha xoş olar. Bu zamanı ona həsr etməyə çalışın. Telefonla məşğul olmanız və digər işlərinizi gəzinti zamanına saxlamanız övladınıza xoş olmayan hisslər bəxş edər. Birlikdə oyunlar oynamanız onun xüsusi sevincinə səbəb olmaqla yanaşı, ona olan qayğınızın, sevginizin və diqqətinizin də göstəricisi olar. Domino, dama, şahmat, puzzl yığmaq kimi oyunlardan istifadə edə bilərsiniz".

Hazırladı Günay Quliyeva



# SƏN BU DÜNYAYA GƏLMİSƏN Kİ,...

*Ayətullah Şahabadi: "Bil ki, sən varsan və ölmürsən. Ölən bədəndir, sən varsan. Diri ikən öz hesabını et, gör ki, axirət həyatı üçün nə hazırlamısan. Qaları olmadığını özün də bildiyin bu iki günlük dünyadan ötrü nə qədər çalışıb-çabalayırsan. Bəs, fitrətin hökmü ilə varlıq və əbədi həyat yeri (kimi qəbul etdiyin axirət) üçün necə çalışmısan və nə hazırlamısan? O yerdə həyat fərdi şəkildədir, öz ehtiyaclarını özün fərdi şəkildə ödəməlisən. Orada girov və yardım istəmək qapısı bağlı olacaq. Sən bu dünyaya gəlmisən ki, ora üçün hazırlıq görəsən..."*

*("İrfan əlifbası: ariflərdən öyüdlər" kitabından)*

# DÜNYASINI DƏYİŞƏNLƏRƏ MƏRASİM KEÇİRMƏK, "3", "7", "40", "İL" MƏCLİSLƏRİ TƏŞKİL ETMƏK OLARMI?

***Dünyasını dəyişmiş insanlar haqda "3", "7", "40" və "il" mərasimlərinin keçirilməsi onlara hörmət, ehtiram, xatirələrini əziz tutmaq məqsədi daşıyır, əzizlərini itirmiş adamlar üçün bir növ təskinlik gətirir. Dini təlimlərdə, Quran və hədislərdə bu cür mərasimlərin keçirilməsi ilə bağlı hər hansı göstəriş yoxdur. Sadəcə, bu mərasimlərin keçirilməsi – israfa yol verilməzsə, orta hədd gözlənilərsə, ağla və dinə də zidd deyil.***



Dində qəbirlərin ziyarət edilməsi, ölənlər üçün ehsan verilməsi, dualar, "Yasin" oxunması, Quran xətm edilməsi kimi tövsiyələrin olması bu cür mərasimlərin keçirilməsinin dinə zidd olmadığını deməyə əsas verir.

Bu mərasimlər nə qədər ki, dinin bir göstərişi olaraq keçirilmir, heç bir problemi yoxdur. Əgər onlara dini bir göstəriş kimi baxılsa, o zaman bidət və günah sayılacaq. Bu məsələdə diqqətli olmalı, Allahın halalının haramla nəticələnməsinə səbəb olmamalıyıq. Belə ki dini təlimlər arasında yer almamış bir əməlin din adı ilə təqdim edilməsi bidət və günah sayılır. Əgər belə olmasa, görülən iş din və ağla da zidd olmasa, halal hesab edilir.

Bunu belə bir sadə nümunə ilə izah edək: Bu gün dünyada müxtəlif idman yarışları keçirilir, filmlər çəkilir və sair. Bunlar haqda konkret olaraq dində heç bir göstəriş və qadağa yoxdur. Bu işlər göstəriş və qadağa olmadığı halda, halallar sırasında yer alır. Əgər bunlara dində qadağan və haram edilmiş hər hansı davranış əlavə edilməzsə, onların halallığı yerində qalır. Və dünyada bu cür misallar yüzlərlə, minlərlədir. Əzizlərinin xatirəsini əziz tumaq da dinə və ağla zidd bir davranış deyil. Üstəlik, dində əzizlərini yad etmək göstərişləri də mövcuddur. İndi əgər bir adamın əzizləri üçün təşkil etdiyi anım mərasimləri din və şəriətə zidd olmaz, əksinə qohumların, dostların görüşməsi, əzizlərini itirmiş adama təskinlik verilməsi, insanların onun dərdinə şərik çıxması, sədəqə verilməsi, Quran oxunması, dini söhbətlərin edilməsi və sair ilə müşayiət edilərsə, bunu yanlış hesab etmək, nə ağla, nə də dinə uyğun deyil.

Peyğəmbər (s) Ühüd döyüşündən qayıtdıqdan sonra hamının öz ölənləri üçün ağladığını görüb deyir: "Niyə Həmzəyə ağlayan yoxdur? Gedin Həmzəyə də ağlayın".

Həzrət Peyğəmbər (s) Mədinədə evlərin yanından keçərkən əzizlərini itirmiş adamların öz şəhidləri üçün ağlayaraq növhə dediyini eşidir. Həzrətin (s) gözləri dolur və ağlayır. Sonra buyurur: "Ancaq əmim Həmzənin ağlayanı yoxdur". Səd ibn Məaz və Üseyd ibn Həzir evlərinə gedib həyat yoldaşlarına, öz qəm-qüssələrini sinələrində dondurub əvvəlcə Həzrət Peyğəmbərin (s) əmisi Həmzə üçün ağlamağı tapşırırlar.

Bundan sonra Peyğəmbərin (s) bu göstərişini eşidən hər kəs hər hansı bir şəhidə ağlamazdan əvvəl birinci Həmzəyə ağlayardı.

İbn Həcər bu faktı belə qeyd etmişdir: "Peyğəmbərin (s) "Əmim Həmzənin ağlayanı yoxdur!" cümləsini eşitdikdən sonra heç bir qadın öz ölüsünə Həmzə üçün ağlamazdan əvvəl ağlamadı".

İbn Kəsir yazır: "Bu günə qədər də ənsar qadınları öz ölənlərinə ağlamazdan əvvəl, birinci Həmzəyə ağlayırlar".

Əhməd ibn Hənbəlin İbn Ömərə istinad etdiyi bir məlumatda belə qeyd edilmişdir: "Ühüddən qayıtdıqdan sonra ənsarın qadınlarının öz şəhidləri üçün ağladığını görən Allahın Rəsulu (s) buyurdu: "Ancaq Həmzənin ağlayanı yoxdur". Həzrət (s) bir az yatıb istirahət edəndən sonra qadınlar Həmzə üçün ağlamağa başladılar. O gündən bu günədək qadınlar əvvəlcə Həmzəyə, sonra isə öz ölənlərinə əzadarlıq edirlər".

İbn Kəsir daha sonra yazır: Vaqidi deyir: "O vaxtdan indiyədək qadınlar birinci Həmzəyə əzadarlıq edirlər".

Diqqət çəkən məsələ Vaqidinin Peyğəmbərdən (s) 200 il sonra yaşamasıdır. Vaqidi Həmzəyə matəm saxlanmasının onun dövrünə qədər gəlib çıxdığını, bu ənənənin 200 il yaşadıldığını qeyd etmişdir. Bu fakt təkcə matəm mərasiminin saxlanması yox, yüz illər keçməsinə baxmayaraq din yolunda, Allah yolunda canlarını fəda etmiş

insanlara matəm saxlanılmasının nə qədər dəyərli olduğunu göstərir.

Ühüd döyüşünün hicrətin 3-cü ilində baş verdiyini nəzərə alsaq, başqa bir faktın da üstü açılmış olur. Deməli, Ühüddən sonra Peyğəmbərin (s) həyatda olduğu sonrakı yeddi il ərzində də bu ənənə yaşanmış və Vaqidinin dövrünə qədər davam etmişdir.

İbn Səd də bu məlumatları qeyd etdikdən sonra yazır: “O gündən ənsarın qadınları birinci Həmzəyə, sonra isə öz ölənlərinə ağlayırlar”.

Hədislərdə cümə günləri qəbiristan ziyarətinə getməyin savab olması ilə bağlı məlumatlar yer almışdır. Ziyarətin cümə günü sübh azanından gün çıxan vaxta qədər edilməsi xüsusilə vurğulanmışdır. İmam Baqirdən (ə) qəbiristan ziyarəti haqqında soruşulduqda buyurmuşdur: “Cümə günü onları ziyarət et. Çünki fəcrlə günəşin çıxdığı vaxta qədər onların çətinlikdə olanlarına rahatlıq verilir”.

Yəni sözügedən mərasimlər şəriətdə qeyd edilən sədəqə verilməsi, “Yasin” və Quran oxunması, qəbrin ziyarət edilməsi kimi davranışlarla müşayiət edilərsə, bunun heç bir problemi yoxdur.

Bəzi hədislərdə əzizlərini itirmiş adamın evinə üç gün yemək aparılması tövsiyə edilmişdir. Rəvayətlərin birində belə deyilir: Cəfər ibn Əbutalib dünyasını dəyişdikdən sonra Peyğəmbər (s) qızı Fatiməyə bir neçə qadınla Əsma binti Ümeysin evinə getməsini, üç gün bunu davam etdirməsini və gedərkən yemək aparmasını göstəriş verimişdir.

Peyğəmbərə (s) istinad edilən hədislərdə dünyasını dəyişmiş adamların ruhlarının cümə axşamları öz əzizlərinin yanına gəldikləri qeyd edilmişdir.

Ümumiyyətlə, İslam dini ağla və dinə zidd olmayan heç bir əmələ qarşı deyil. Əgər görülən iş rasionallığı aşırsa, dindən olmadığı halda, ona din adı qoyulursa və ya icrasına dində qadağan edilmiş, günah hesab edilən elementlər qarışdırılırsa, o zaman günah sayılır. Əks təqdirdə din adından çıxış edərək hər hansı məsələyə dini qadağa qoymaq və onu yanlış hesab etmək dinin mövqeyi ola bilməz.






Zəlzələ yerüstü zərbələr və yerin üst qatının titrəməsidir. Güclü yeraltı təkanlar evləri və tikililəri uçura, sunami və yer sürüşmələri əmələ gətirə bilər və nəticədə adamların həlakına səbəb ola bilər. Zəlzələ nəticəsində yerin üst qatı formasını dəyişə bilər. Zəlzələ Yerdə baş verən dinamik proseslər nəticəsində baş verir. Bunun bir nəticəsi kimi lay tektonikasını göstərmək olar. Yerin özəyi və qabığı arasındakı litosfer laylar zəlzələlərin yaranmasında böyük rol oynayırlar. Zəlzələlər əsasən bu layların sərhəd zonalarında əmələ gəlirlər. Müxtəlif layların bir-birinə nəzərən sürüşməsi və toqquşması yeraltı təkanlara səbəb olurlar. Yeraltı daşların kəsicilik möhkəmliyi həddi keçdikdə onlar burada yaranan gərginliyi sıçrayışla boşaldır və nəticədə yeraltı tektonik təkanlar baş verir. Yaranan enerjinin qiyməti hidrogen bombasının gücündən də 100 dəfə çox olması məlumdur. Bu gərginlik boşalması layların sərhəd zonalarında baş verdiyi kimi, onların orta hissələrində, möhkəmliyi zəif zonalarda də yarana bilər.

Zəlzələnin baş verməsi üçün ilkin şərtlərdən biri də, yerin altında kövrək süxurların olmasıdır. Yerin mərkəzinə tərəf irəlilədikcə temperatur artır. Nəticədə suxurlar nisbətən yumşaq olur və burada zəlzələnin yaranması üçün az imkan olur. Zəlzələ ona görə də yerin üst qatlarına yaxın zonalarda cəmləşir. Bəzi hallarda zəlzələ yerin 700 km dərinliyinə qədər işləyə bilirlər. Əgər iki lay toqquşarsa onda, sıxlığı yüksək olan yüngül layı aşağıya yerin dərinliyinə itələyir. Bu Vadati-Buniof-Zonaları adlı model ilə izah olunur. Zəlzələlər həmçinin vulkan püskürməsi nəticəsində də yarana bilərlər. Ancaq burada baş verən zəlzələni tektonik enerjisi məhduddur. Zəlzələ zamanı Yerdə müxtəlif dalğalar yaranır. Bu dalğalar bütün yer kürəsinə yayılır və seysmoloqlar tərəfindən yerin istənilən nöqtəsində ölçülə bilir. Bu dalğalar yerin üst qatında baş verən dağıntılara səbəb olur. Yer qabığının dərinliklərində toplanan potensial enerjinin təsiri ilə yer səthinin ani vaxt ərzində titrəməsinə zəlzələ deyilir. Zəlzələni öyrənən elm seysmologiya adlanır. Xəritədə eyni zəlzələ şiddətindəki nöqtələri birləşdirən xətlərə izoseyestlər deyilir. Yer daxilində zəlzələyə səbəb olmuş ilk hərəkətin baş verdiyi yerə hiposentr deyilir. Zəlzələlər əmələ gəlmə şəraitinə görə 2 yerə ayrılır: Vulkanik və tektonik mənşəli zəlzələlər.

*Rəvayətlərə görə bu, həmin ayın ya 18-19-na, ya 20-21-nə, ya 22-23-nə və 26-27 nə keçən gecə baş vermişdir. Həmin gecə "leylətul-qədr" – qüdrətli, əzəmətli gecə adlanır. Qurani-kərimin "Qədr" surəsində buyurulur: "Həqiqətən, biz Quranı Qədr gecəsi nazil etdik. Bilirsənmi Qədr gecəsi nədir? Qədr gecəsi min aydan xeyirlidir. O gecə mələklər və ruh Rəbbinin izni ilə hər işdən ötrü enər. O gecə dan yeri sökülənədək əmin-amanlıqdır."*

# QƏDR GECƏSİ



Qədr gecəsi bütünlüklə xeyir-bərəkət gecəsi olar, mələklər yer üzündə gəzib, Allahın müxlis bəndələrinə salam verərlər. Buna görə də Qədr gecəsi səhərə qədər oyaq qalıb, ibadət etmək müstəhəb sayılır.

Əgər bir şəxs Qədr gecəsi ibadətlə məşğul olarsa, onun bu gecədəki ibadəti min ay (təqribən 84 il) ibadətdən üstün və fəzilətli olar. Rəvayətlərdə Qədr gecəsinin fəziləti haqqında çoxlu hədislər nəql olunub. Qədr gecəsini Allah-Təala məhz Həzrət Məhəmmədin (s) dövründə onun ümməti üçün təyin edib.

Hədislərdə nəql olunur ki, o gecə şeytan möminlərə yaxın düşə bilməz. Hər kəs bu gecənin ləzzətini, mənəvi gözəlliyini hiss etmək və günahlarının bağışlanmasını istəyirsə, bu gecəni ibadətlə keçirməli, mələklərin salamına cavab verməlidirlər. Qədr gecəsi əhya saxlamaq, yəni səhərədək oyaq qalmaq savab sayılır. Həmin gecədə təkcə oyaq qalmağın özü də ibadət sayılır. Çünki oyaq qalmanın özü bu mübarək gecəni ilin başqa günlərindən tamamilə fərqləndirir.

Hər kim Qədr gecəsində oyaq qalıb Allaha ibadət edərsə, Allah-Təala ona min ay ibadətin savabından artıq savab yazar. Əgər bir kəs oyaq qalmaqla narahat olursa, yatmağın heç bir eybi yoxdur. Çünki onun bu gecəni oyaq qalmaq və ibadət etmək niyyəti ona bu savabı qazanmağa imkan verir. Allah bütün niyyətlərdən xəbərdardır və inşallah, bu yuxusunu onun üçün ibadət hesab edər. Çünki gecə oyaq qalıb narahat halda ibadət etmək düzgün deyil. İnsan gərək ibadəti eşq və həvəslə yerinə yetirsin.

Evlərimizdə səhərə qədər oyaq qalıb Allaha ibadət etməkdə məqsəd budur ki, Allah-Təalaya ibadət və dua edib günahlarımızın bağışlanmasını diləyək. Bu gecə Allah özü insanları dəvət edərək onların günahlarını bağışlayır.

Nəql olunur ki , hər kim qədr gecələrini əhya saxlasa , günahları göydəki ulduzların, dağların ağırlığı, dənizlərin tutumu qədər olsa belə bağışlanar.

## Qədr gecəsinin fəziləti haqqında deyilir:

1. Günahların bağışlandığı gecədir. Həzrət Peyğəmbər (s) buyurur: “Hər kim Qədr gecəsini əhya saxlayar və mömin olar, Qiyamət gününə etiqadı olar, bütün günahları bağışlanılar”.

2. Ramazan ayının qəlbidir. İmam Sadiq (ə) buyurur: “Allahın kitabından istifadə olunur ki, Allah yanında ilin aylarının sayı on ikidir. Ayların ən üstünü - Ramazan ayıdır, Ramazan ayının qəlbi isə Qədr gecəsidir”. Həzrət Peyğəmbər (s) buyurur: “Qədr gecəsi - gecələrin sərvəridir”.

3. Min aydan daha yaxşıdır. Qurani-Kərim buyurur: “Qədr gecəsi min aydan daha xeyirlidir”. (“Qədr” 3).

Bəs nəyə görə bu gecə min aydan daha üstündür?

Nəql olunur ki, o zaman ki, Ramazan ayı yaxınlaşardı, Həzrət Peyğəmbər (s) Bilala buyurardı: “Müsəlmanları məscidə çağır”. Onlar toplaşan zaman minbərə qalxar və Allaha həmd etdikdən sonra buyurardı: “Ey insanlar! Allah Təala bu ayı sizə aid etmişdir. O, ayların seyyididir və onda elə bir gecə vardır ki, min aydan daha yaxşıdır”.

Bu gecədə edilən hər bir yaxşı əməl, başqa gecələrdə edilənlərdən daha üstündür. İmam Sadiqə (ə) sual verirlər ki, necə ola bilir ki, Qədr gecəsi min aydan üstün olur? Həzrət (ə) belə cavab verir: “Qədr gecəsindəki əməl, Qədr gecəsinin olmadığı min ayda edilən əməldən daha üstündür”.

4. Mələklər və ruh Allahın izni ilə yerə enərlərlər. İmam Səccad (ə) buyurur: “Allah Peyğəmbərə (s) buyurur: “Bilirənsənmi ki, Qədr gecəsi niyə min aydan daha üstündür?”. Həzrət (s) buyurur: “Xeyr”. Allah buyurur: “Ona görə ki, bu gecədə mələklər və ruh Allahın izni ilə yerə enərlərlər”.

5. Quran bu gecədə nazil olmuşdur. Bəli, Qurani-Kərim bu gecədə bir dəfəyə, xülasə şəklində Peyğəmbərin (s) o nurani qəlbinə bir ruh kimi nazil olmuşdur. Lakin sonradan 23 il ərzində söz şəklində tədricən nazil olmuşdur.

Qədr gecəsi ən mübarək gecələrdən biridir və bu gecənin bərəkət və xeyirləri çoxdur. Ona görə də qarşıdan gələn Qədr gecələrinin fürsətlərini əldən verməyək və ondan bəhrələnməyə çalışaq.

6. Qədr gecəsinin fəziləti. Təbii ki, bu gecədə ibadət və zikr edilərək ehya saxlamaqdadır. Və ayədə buyurulduğu kimi bu gecə 1000 aydan daha üstündür. Yəni bu ayda edilən ibadətlərin, oxunan zikrlərin, verilən sədəqələrin və digər xeyir əməlləri savabı 30 000 dəfə daha artıqdır, çünki 80 ildə 30 000 gün var.

Bu gecənin insanlara gizli qalmasının hikməti və fəlsəfəsi nədir?

Təfsir alimləri bu sualın cavabında deyiblər ki, bu gecənin gizli qalmasının səbəbi odur ki, insanlar Ramazan gecələrinin hamısına əhəmiyyət versinlər. Bu mənanı aşkar etmək üçün misal olaraq deyiblər: “Necə ki, Allah öz razılığını itaətlərin içində gizlədib ki, insanlar bütün işlərdə itaətkar olsunlar. Və qəzəbini məsiyyətlər arasında gizlədib ki, insanlar bütün məsiyyətlərdən uzaq dursunlar. Həmçinin öz dostlarını insanlar arasında gizlədib ki, bütün insanlara ehtiram olunsun. Necə ki, İsmi-Əzəmi Əsmaul-Husnanın içində gizlədib ki, bütün sifətləri böyüklüklə yad edilsin. O cümlədən ölüm vaxtını gizlin saxlayıb ki, insanlar hər zaman hazır olsunlar”.



# İmam Əlinin müsəlmanlara son vəsiyyəti

**Əbul Fərəc nəql edir ki, İmam Əli (ə) zərbətlənəndən sonra Kufə həkimləri yanına gəlir. Onların içində Əsir ibni Əmr kimi mütəxəssisi yox idi. O, yaraları müalicə etməkdə tanınmış mütəxəssis idi. Bu həkim zərbətin yerini görən zaman əmr edir ki, qoyunun ağciyərini gətirsinlər. O, ağciyərdəki damarları çıxardır və həmin damarları yaraya qoyur. Bir qədər sonra çıxardıb onları müşahidə edir. Üzünü Həzrətə (ə) çevirib deyir: “Ey Əmirəl-möminin! Nə vəsiyyətin varsa et ki, bu düşmənin zərbəsi beyninə çatıbdır və müalicənin faydası yoxdur”. Bu zaman İmam Əli (ə) kağız və qələm istəyir və vəsiyyətinə başlayır. Mən o vəsiyyətdən bəzilərini sizə deyəcəm.**

Ey Həsən! Mən səni, bütün övladlarımı və nəslimi və bu vəsiyətnamənin çatdığı hər bir kəsi sizin Pərvərdigarınız



olan Allahdan qorxmağa və təqvaya dəvət edirəm. Gərək müsəlman olmamış ölməyəsiniz. Hamınız İlahi kəndirdən yapışın və dağılmayın. Dünya sizin sorağınıza gəlsə də, siz dünyanın ardınca getməyəsiniz; dünyada əlinizdən çıxan bir şey üçün təəssüflənməyin, haqq söz deyin və (ilahi) əcr və savab üçün iş görün, zalımların düşməni və məzlumların dostu, himayəçisi olun.”

İki nəfərin arasında sülh yaratmağı tövsiyə edirəm, çünki sizin cəddinizin belə buyurduğunu eşitdim: “Camaat arasında sülh yaratmaq bir illik oruc-namazdan əfzəldir.”

İmam Əli (ə) oğlu İmam Həsənə(ə.s) vəsiyyət edərkən Allahın geniş mərhəmət cilvələrindən söz açaraq buyurur: “Allah-Taala günah etdiyin halda sənə tövbəni qadağan etməmiş, geri dönəcəyinə görə qınamamış, cəzalandırmaq üçün tələsməmiş, rüsvayçılığa layiq olduğun halda rüsvay etməmiş, günahlarını hesaba almamış, səni öz bəxşişindən ümidsiz etməmiş, tövbənin qəbulunu çətinləşdirməmiş, tövbəni günahdan çəkinməyin kimi yazmış, hər günahına bir cəza, hər yaxşı işinə on savab vermişdir



Allahdan qorxun, Allahdan qorxun, qonşularınıza görə. Rəsulallah (s) onlara görə tövsiyə etmişdir. Belə ki, biz güman edirdik ki, qonşu qonşudan irs aparır. Onların hörməti o qədər böyükdür ki, malından onlar üçün pay ayırmışdır.

Allahdan qorxun, Allahdan qorxun, Qurana görə. Məbada kimsə ona əməl etməkdə sizi qabaqlayar.

Allahdan qorxun, Allahdan qorxun, Ramazan ayının orucuna görə. Çünki o, sizin üçün cəhənnəm atəşindən yaxşı qalxandır.

Allahdan qorxun, Allahdan qorxun, yoxsullara görə. Onları həyatınıza şərik edin, yeyəcək və geyəcəklərinizdən onlara verin.

Allah üçün, Allah üçün, namazı buraxmayın; çünki o, ən yaxşı əməl və dininizin dirəyidir

İnsanlarla gözəl danışın, necə ki, Allah buyurub.

Əmr be-məruf və nəhy-əz-munkəri tərk etməyin. Əks halda hər nə dua etsəniz, Allahdan şəri dəf etməsini istəsəniz, qəbul olmayacaqdır.

Mən dünən sizinlə yoldaş və həmnişin idim. (Sağlamlıq, igidlik və gücümlə sizə xidmət edirdim.) Bu gün isə sizlər üçün ibrət və öyüdəm. (Bütün bu igidlik və qüdrətimə baxmayaraq, ölürəm.) Sabah sizdən uzaqlaşaraq ayrılacağam. (Öləcəyəm.)

Mən sizin qonşunuz idim və bir müddət bədənim də sizə yoldaş idi. Tezliklə - hərəkətdən sonra sakitləşmiş, danışdıqdan sonra susmuş cansız bədənimi görəcəksiniz. Mənim hərəkətsizliyim, gözlərimi önümə dikməyim və əzalarımın sakitliyi sizlər üçün ibrət olsun.

Çünki bu hal ibrət götürənlər üçün hər bəlağətli söhbətdən, hər qəbul edilmiş sözdən daha nəsihətlidir.

Sabah mənimlə olduğunuz günləri xatırlayacaqsınız. (Mən dünyadan köçdükdən, Bəni-Üməyyə və başqaları hakimiyyətə gəldikdən sonra mənim qədrimi biləcəksiniz.)

Ey Əbdülmüttəlib övladları! Camaatın qanını tökməyə aludə olmayın! Mənim ölümümdən sonra “Əmirə-lmöminin öldürüldü!” - deyə qəzəb və intiqam hissi ilə haray salmayın! Mənim qisasım üçün qatilimdən başqasını öldürməyin!

Bilin ki, mənə bircə qılınc zərbəsi vurulub, siz də qatilimə bircə zərbə vurun. Qatilimə işgəncə verməyin! Allah Rəsulundan eşitmişəm ki, buyurub: “Hətta itə də işgəncə verməkdən çəkinin!”

İndi sizinlə vidalaşıram və sizi Allaha tapşırıram”.

Həzrət (ə) vəsiyyət edəndən sonra davamlı olaraq “Lə İləhə illəllah” deyir və müqəddəs ruhunu tapşırır.

## Boş və faydasız sözlər

*Nə qədər istəsən insanlar arasında sms, cəfəngiyyat, mənasız e-poçtlar və bir çox başqa dəyərsiz şeylər mübadiləsi edə bilərsən?*
*Bunun axırı nə olacaq? Yəni bizim ömrümüz bu boş şeylərə xərclənəcək qədər dəyərsizləşib? Kaş ki, nə vaxtsa bizə bunları göndərsələr və ya danışsalar, bu Quran ayəsini oxuyaq, bəlkə Allah istəsə, bu gündəlik işlərdən qurtula biləks.*



وَالَّذِينَ هُمْ عَنِ اللَّغْوِ مُعْرِضُونَ

"Və o kəslər ki, bütün pis və çirkin (iş)lərdən üz döndərirlər."

*(Muminun surəsi, 3-cü ayə)*

## Pul hərisliyi

*Bu pul olan şey nədir ki, bu qədər ona qarşı hərissən? Adam nə qədər pul qazanır, yığır, gözü doymur! Bir zaman özünə gəlir ki şaquli idi üfüqi olub və bir qrup insanlar gəlib onu aparırlar. O an, ev, avtomobil, villa, pul, bank hesabı, qızıl, gümüş, şirkətlər, paltarlar və bu dünyada olan ləl cəvahirlər ki, insanın gözünü boyayıb. Bu qədər şeydən üz və ürək döndərib getmək çox çətindir. Quran buyurur:*



أَلْهَاكُمُ التَّكَاثُرُ . كَلَّا لَوْ تَعْلَمُونَ عِلْمَ الْيَقِينِ

*"Çoxluğa hərisliyiniz başınızı o qədər qatdı ki,"*
*"Xeyr! Əgər (həqiqəti) yəqinliklə bilsəydiniz, (belə işlərlə məşğul olmazdınız."*

*(Təkasur surəsi 1, 5 ayə)*

# Batini iman

*Bəzi paltarlar bəzi adamlara yaraşmır. Nə qədər çalışsa da məlum olur ki, onun üçün münasib libas deyil. Məsələn bəzi insanlara kostyum şalvar yaraşmır. Gərək həmişə sport tərzdə geyinsin. Amma bu dünyada hamı başqasının libasına bürünür. Aşkarda birini görüb fikirləşirsən ki, abiddir (ibadət əhlidir) amma zaman keçdikcə görürsən ki, bu işin zahiri görünüşüdür və işin içi fərqlidir. Biz yavaş-yavaş qarşımızdakı insanı tanıyırıq. Amma Allah taala elə əvvəldən onu tanıyırdı! Allah taala buyurur ki, mən sizin özünüzdən və digərlərindən çox imanınızın dərinliyindən xəbərdaram.*

وَاللَّهُ أَعْلَمُ بِإِيمَانِكُمْ

**"Allah sizin imanınızı daha yaxşı bilir."**

*(Nisa surəsinin 25-ci ayəsinin bir hissəsindən)*



# Əsl məsləhətçi

*Hər kəs məlumatlar mənbəyinə çevrilibdir! Məsləhətləşmə köhnəlib. Bir oğlan evlənir, iki ay müddətində boşanır və yaxud qız ərə gedir bir ay ərzində boşanır, yeni maşın alır hələ 100 km getməmiş gözündən düşür, özünə dost tapır, həftə sonu başını buraxır. İnternet insanın məsləhətləşmə mərkəzi olub. Məcazi insanlar ona məsləhət verirlər, o da qəbul edir. Həqiqi insanları qəbul etmir. Şalvarının yırtığı daha çox olanların sözünü qəbul edir. Təcrübəli insanlarla işi yoxdur. Heç olmasa gərək Allahın peyğəmbərinə olan sözünü qəbul etsin:*

وَ شاوِرهُم فِي الأَمرِ

**"İşlərində onlarla məsləhətləş."**

*(Ali İmran surəsi, 159-cu ayəsinin bir hissəsindən)*



## And içmə

*Allaha and olsun, İmama, Qurana, Peyğəmbərə and olsun, and olsun ata-anamın canına və s...*
*Bu qədər and içmək nəyə lazımdır axı? Qarşı tərəf işlərinin irəli getməsi üçün dayanmadan and içir. Çox vaxt anddan sui istifadə edilir. Yəni yalanın ifşa olmaması üçün tez tez and içməyə başlayır. Əgər həqiqətən doğru olsa gərək bu qədər and içilməsin. Həqiqət öz yolunu tapacaq və and içməyə ehtiyac qalmayacaq. Çox and içən adamlara gərək Quranın dili ilə deyilsin:*

وَلَا تَجْعَلُوا اللَّهَ عُرْضَةً لِأَيْمَانِكُمْ

**"Allahı andlarınıza hədəf etməyin...."**

*(Bəqərə surəsinin 224-cü ayəsinin bir hissəsindən)*



## Çəkidə aldatmaq

*Satıcılar adətən tərəzidə bir az ağır çəkməyə çalışırlar ki, müştəriyə az çəkidə mal vermədiklərindən əmin olub, özlərini daha rahat hiss etsinlər. Amma çəkidə aldatmaq yalnız tərəzidə olmur. Xalqın haqqı olan və onlara verilməyən hər şey aşağı satmaq deməkdir. İndi istər mal və əşya satmaq olsun, istərsə də maşın və ev avadanlığının təmiri, tədris və təlim yaxud da idarələrdə müraciət edənlərə cavab vermək və s. olsun. Bu sadalanan yer-lərdə gərək ən yaxşı şəkildə vəzifəyə əməl olunsun. Çünki Allah taala buyurur:*

فَأَوْفُوا الْكَيْلَ وَالْمِيزَانَ وَلَا تَبْخَسُوا النَّاسَ أَشْيَاءَهُمْ

***"Ölçü və tərəzini düz edin, camaatın malından kəsməyin"***

*(Əraf surəsi 85-ci ayənin bir hissəsindən)*



# Ata-ana bir nurdur

*Quran şəffaf şəkildə və heç bir istisna olmadan ata-anaya hörmət etməyi vacib hesab edir. Məsələn, demir ki, əgər onlar sənə pislik və yaxud əziyyət etdikləri zaman sən də onlara pislik et. Bəzi uşaqlar elə fikirləşirlər ki, ata-ana səhərdən axşama kimi uşaqlara xidmət edib qulluğunda durmalıdırlar! Ona görə də ata-analarına biraz əsəbləşən zaman artıq əskik ifadələr işlətməyə başlayırlar.*
*Allah təala buyurur ki, sənin onlara bu ifadələri söyləməyə heç bir haqqın yoxdur!*

فَلَا تَقُلْ لَهُمَا أُفٍّ

**"Onlara "uf" (ən kiçik etiraz və ədəbsiz söz) belə demə!"**

(İsra surəsinin 23-cü ayəsinin bir hissəsindən)



# Həyat yoldaşı ilə mehribanlıq

*Bəzi kişilər elə fikirləşirlər ki, hələ də mağarada yaşayırlar! Evə yetişən zaman elə nərə çəkirlər ki bütün mağara, bağışlayın, bütün ev silkələnir! Sonra da divana uzanıb, durmadan həyat yoldaşına əmrlər verirlər. Yaxud da gün ərzində evə zəng edib, əmrlər verirlər. Elə fikirləşirlər ki, həyat yoldaşı onun qulluqçusudur. Həyat yoldaşları ilə acı dil və zorla danışırlar.*
*Təsəvvür edin ki, Allah 14 əsr bundan qabaq kişilərə deyib: Ey kişilər sakit olun! Həyat yoldaşınızla düzgün rəftar edin!*

وَ عاشِرُوهُنَّ بِالْمَعرُفِ

**" Onlarla yaxşı davranın"**

(Nisa surəsi 19-cu ayə)



## Hz. Peyğəmbərimiz (s) buyurur:

Yeddi əməl sahibi vardır ki, insan dünyadan köçdükdən sonra da onun savabı yazılar.

- Ağac əkən kimsənin;
- Bir (su) quyusu qazanın;
- Bir su arxı yola salanın;
- Bir məscid tikdirənin;
- Bir Quran yazıb (çap edib) buraxanın;
- Özündən bir elm (töhfə) qoyan kəs;
- Saleh bir övladı (cəmiyyətdə) olub, öldükdən sonra onun üçün bağışlanma diləyənin.

**İmam Cəfər Sadiq (ə) buyurur:** "(Sənə qarşı) hər kimdə bu şərtlərdən biri olsa, o kamil (həqiqi) dostundur. Bunardan biri olmadıqda isə dərəcə-dərəcə dəyəri azalar. Əgər heç biri olmasa ona dost deməк olmaz.

1. Zahiri (rəftarı) ilə batinindəki (qəlbindəki sənə qarşı) bir olsun.
2. Sənə yaxşılığı özünə, sənə pisliyi də özünə olunmuş hesab etsin.
3. Gücü çatdığı və imkanı yetdiyi qədər kömək edib, sizinlə yoldaşlıq etməkdən bezməsin;
4. Çətin, (acınacaqlı) və səfalət günündə (məqamında) səni unutmasın və tək qoymasın.
5. Maddi vəziyyəti yaxşılaşanda, artıq var-dövlət qazananda və ya bir məqama çatdıqda, rəftarı sənə qarşı dəyişməsin.